Elm xadimləri

# Yaddaşlarda yaşayan böyük alim

Dünya oftalmologiya elminə böyük töhfələr vermiş akademik Zərifə xanım Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Şahtaxtı kəndində dövrünün görkəmli dövlət xadimi, xalqımızın sədaqətli oğlu Əziz Əliyevin ailəsində doğulub böyümüş, gözəl tərbiyə və mükəmməl təhsil almışdı. Zərifə xanımın atası Əziz Əliyev Azərbaycanın səhiyyə sisteminin inkişafında misilsiz xidmətləri olan böyük şəxsiyyət olmuşdu. O rektor, nazir, Mərkəzi Komitənin katibi, Baş nazirin müavini olmuş və həmişə yüksək intelekti, təşkilatçılıq bacarığı ilə böyük nüfuz qazanmışdır. Dövrünün partiya və dövlət xadimləri arasında özünəməxsus geniş siyasi və mədəni dünyagörüşü ilə seçilmişdir. Əziz Əliyevin həyatının bütün mürəkkəb mərhələləri əslində onun övladları üçün həyat dərsləri olmuşdur. Belə bir ailədə böyüyən Zərifə xanım təbii ki, səmimiyyəti, zərifliyi, insanlara olan sevgisi ilə başqalarından tamamilə fərqlənirdi. Öz gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və 1947-ci ildə həmin institutu əla qiymətlərlə bitirir. Oftalmologiya peşəsinə yiyələnmək arzusu gənc mütəxəssisi Moskva şəhərinə gətirir və o, Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda ikiillik ixtisaslaşdırma kursu keçərək həkim-oftalmoloq ixtisasına yiyələnir. O dövrdə Azərbaycanda bir sıra göz xəstəlikləri geniş yayılmışdı və traxoma deyilən dəhşətli bəla tüğyan edirdi. Xalqımızı bu müdhiş bəladan xilas etmək, Azərbaycanda regional əhəmiyyət kəsb edən göz xəstəliklərinə, o cümlədən gözün peşə xəstəliklərinə dair fundamental tədqiqatlar aparmaq, onların effektli müalicə metodlarını və profilaktik tədbirləri işləyib hazırlamaq tələb olunurdu. Zərifə xanım Əliyeva məhz belə bir dövrdə Moskva şəhərindən vətənə qayıdır və Azərbaycan Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlayır. Gənc tədqiqatçının elmi araşdırmalarının mövzusunu həyat özü müəyyənləşdirir və o, elmi istiqamətlərinin ilkin mərhələsini traxomanın müalicəsinə həsr edir. Konkret müalicə təcrübəsindən başqa alim Azərbaycanda bu xəstəliyin daha geniş yayıldığı rayonlara gedir, traxoma ocaqları aşkar edir, həkim-oftalmoloqlara mühazirələr oxuyur, əhali arasında söhbətlər aparırdı. Həmçinin uşaq evlərində olan ata-ana himayəsindən məhrum yeniyetmələr arasında traxomanın aradan qaldırılmasında müstəsna xidmətlər göstərirdi.



Zərifə xanım Əliyevanın 1959-cu ildə uğurla müdafiə etdiyi «Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi mövzusunda namizədlik dissertasiyasının əsasını təşkil edir. Zərifə xanımın təklifi ilə yeni müalicə metodu tezliklə geniş təcrübi tətbiqini tapır və nəticədə respublikada traxoma bir xəstəlik kimi ləğv edilir. Ona görə də demək olar ki, Azərbaycanda traxomanın sosial xəstəlik kimi ləğv edilməsi Zərifə Əliyevanın adı ilə bağlıdır.

Böyük alim Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutundan sonra öz fəaliyyətini Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasında davam etdirir. Burada dosent, professor, daha sonra isə kafedra müdiri vəzifələrində işləyir, oftalmologiyanın aktual problemlərinə həsr edilmiş çoxprofilli tədqiqatlar aparır. Həmin dövrdə Zərifə xanım həkimlik fəaliyyəti ilə daha çox məşğul olmağa başlayır, cərrahiyyə əməliyyatları aparır, xəstələrə yeni üsullu müalicələr təyin edir, üstəlik o, göz xəstəlikləri üzrə təkmilləşdirmə kurslarının dinləyici həkimləri ilə pedaqoji iş aparır. Zərifə xanım uzun illər respublikanın ondan artıq iri sənaye müəssisəsində geniş miqyaslı elmi tədqiqat işləri aparmışdır. Bu işlər Bakı şin və yod, məişət kondisionerləri, elektrotexnika avadanlığı, elektron hesablama məhsulları, maşınqayırma zavodlarında, Sumqayıt «Üzvü Sintez istehsalat birliyində», Mingəçevir «İzolit; Mingəçevir Rezin-Texnika Məmulatı zavodlarınında fəhlələri arasında aparılmışdır. Onun tədqiqatlarının miqyası çox geniş idi. Zərifə xanım təkcə şin istehsalında çalışan 1281 işçinin üzərində klinik müşahidə apamışdı. Tədqiqatlar bu xəstəliklərin patogenetik mahiyyətini aşkara çıxarmağa kömək etmişdi.

Gözəl həkim, istedadlı alim, sadə insan Zərifə xanımın tədqiqatları Azərbaycanın hüdudlarını keçərək digər ölkələrin alimlərinin də diqqətini cəlb edirdi. Ümumittifaq elmi konfransların birində alim qeyd edirdi ki, geniş miqyasda aparılan profilaktik və müalicə tədbirləri nəticəsində indi kimya sənayesində görmə orqanının peşə xəstəliyinə tutulması hallarına az-az rast gəlinir. Zərifə xanım Əliyeva Bakı Məişət Kondisionerləri Zavodunda nadir bir laboratoriya yaratmışdı. Burada o, görmə orqanın fiziologiyası və peşə patologiyası ilə məşğul olurdu. Alimin bu laboratoriyada əldə etdiyi qənaətlər elmdə ölçüyəgəlməz dərəcədə nəzəri və praktiki əhəmiyyət daşıyır. Zərifə xanım çox vaxt laboratoriyada oturmur, birbaşa istehsal sahələrinə yollanır, xəstələri orada müşahidə və müayinə edirdi.

Bir fakt xüsusi qeyd olunmalıdır ki, 1981-ci ildə görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi- tədqiqat işlərinin uğurlu nəticələrinə və oftalomologiyanın inkişafına verdiyi töhfələrə görə, akademik Zərifə Əliyeva keçmiş İttifaqın oftamalogiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ. Averbax adına mükafatına layiq görülmüşdür. Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk alimqadın idi. Məşhur oftalmoloq M. Krasnov Zərifə xanımın görmə orqanlarının peşə patologiyasının tədqiqatlarını yüksək qiymətləndirərək qeyd etmişdir ki, Zərifə Əziz qızı yaşasaydı, oftalmologiya elmi sahəsində yeni kamil bir məktəbə rəhbərlik edə bilərdi.

Dünya oftalmologiya elminin tanınmış simaları Zərifə xanım Əliyeva haqqında xoş sözlər demişlər. Moskva oftalmoloji məktəbi Zərifə xanımı oftolmologiyanın mirvarisi adlandırırdı. Dünya şöhrətli öftalmoloq akademik A. Nesterov demişdir: «Zərifə Əliyeva böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm».

1983-cü ildə gərgin elmi-təşkilatı fəaliyyətinə və oftalmologiyanın inkişafındakı xidmətlərinə görə Zərifə xanım Əliyeva Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, 150-dən artıq elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifi idi. Yüksək vətəndaşlıq mövqeyi, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın dərin hörmət və sevgisini qazanmış Zərifə xanım ilk növbədə böyük və parlaq şəxsiyyət idi. Onun xatirəsini sadə xalqın yaddaşında ehtiramla yaşadan həm də mərhəmət və şəfqətdir. Ulu öndər Heydər Əliyevin müasir Azərbaycan qadınının problemlərinə böyük diqqət yetirməsində Zərifə xanımın şəxsi nümunəsi də mühüm rol oynayırdı.Güclü şəxsiyyət və dərin zəka sahibi Zərifə xanım ulu öndərə etibarlı mənəvi dayaq idi.

Heyif ki, Zərifə xanım dünyadan vaxtsız köçdü. Amma bu gün Azərbaycanın tibb sahəsində Zərifə Əliyevanın böyük təcrübəsindən istifadə olunur.

**Kamal MƏMMƏDOV,**
**Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin baş həkimi əvəzi.**

# Böyük Vətən müharibəsində Qələbənin 70 illik yubileyinin qeyd olunmasına hazırlıq işlərinə başlanmışdır

Azərbaycan Respublikası Prezidentinin 23 fevral 2015-ci il tarixli sərəncamı ilə əlaqədar respublikamızın hər yerində olduğu kimi Qəbələ rayonunda da 1941—1945-ci illərdə Böyük Vətən müharibəsində qələbənin 70 illik yubileyinin qeyd olunması üçün hazırlıq işlərinə başlanılmışdır.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev 1941—1945-ci illər Böyük Vətən müharibəsində qələbənin 70 illik yubileyinə hazırlıqla və qeyd olunması münasibətilə 30 mart 2015-ci il tarixli 37 nömrəli sərəncam imzalamışdır. Sərəncamla tədbirlər planı təsdiq olunmuşdur. Sərəncamın icrasına nəzarət etmək rayon icra hakimiyyəti başçısının birinci müavini cənab Abil Ağasəfova tapşırılmışdır.

Tədbirlər planında Qələbənin 70 illiyinə hazırlıq və yubileyin qeyd olunması üçün rayonun bütün dövlət qurumlarına, idarə, müəssisə və təşkilatlara tapşırıqlar verilmiş, xatirə komplekslərinin təmiri, onların ziyarət edilməsi, sağ qalan müharibə veteranlarına, sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına qayğılar göstərilməsi, onlarla görüşlərin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlər planında 90 yaşına çatmış müharibə veteranlarının yubileylərinin keçirilməsi, 70 illiyə həsr edilmiş sənədlərin, plakatların fotomaterialların, əsərlərin, əşyaların sərgisinin təşkil edilməsi, «Qəbələ» qəzetində döyüşçülərin həyatına həsr edilmiş yazıların çap olunması, təhsil müəssisələrində vahid dərs saatlarının (gününün) keçirilməsi, müharibə veteranları ilə gənclərin görüşlərinin təşkili və şair kimi tədbirlər xüsusi yer almışdır.

Tədbirlər planının yerinə yetirilməsini təmin etmək üçün rayon icra hakimiyyətinin işçilərindən, müvafiq idarə və müəssisə rəhbərlərindən ibarət məsul şəxslər ayrılmışdır.

**Nadir ATAKİŞİYEV.**

# Qəbələyə gələn turistlərin sayı iki dəfə artmışdır

Qəbələ rayonu coğrafi relyefinə, paytaxta yaxınlığına və burada yaradılan müasir turizm infrastrukturuna görə nəinki isti yay fəslində, hətta qış və yaz aylarında da səyahət üçün cəlbedicidir.

Mart ayında rayonumuza gələn yerli və xarici turistlərin sayı ötən ilin müvafiq dövründəkindən iki dəfə çox olmuşdur. Kanatla dağlara səyahət etmək, xizəklə buz üstündə sürüşmək, alpinizmlə məşğul olmaq, motorlu xizəklərlə, at və faytonlarla gəzintiyə çıxmaq, göllərdə qayıq sürmək və balıq tutmaq, istirahət və əyləncə mərkəzlərinin xidmətlərindən bəhrələnmək, stend və ox atıcılığı kompleksində, atçılıq mərkəzində asudə vaxtını keçirmək barədə düşünənlərin arzusu Qəbələdə gerçəkləşmişdir.

Rayonumuza gələn qonaqların istirahətinin mənalı təşkili üçün otellərdə tanınmış musiqiçilərin iştirakı ilə konsertlər, müxtəlif əyləncəli tədbirlər keçirilmişdir. Yerli və xarici turistlər bu əsrarəngiz diyarın zəngin tarixi, müasir şəhərsalma mədəniyyəti və ləziz mətbəxi ilə yaxından tanış olmuşlar. Çuxur Qəbələ kəndi yaxınlığındakı qədim Qəbələ şəhərinin xarabalıqlarından tapılan nadir arxeoloji nümunələr, eləcə də mədəniyyət mərkəzində təşkil olunan "Gülbuta", "Gülüstan" və "Zopu-Zopu" folklor-etnoqrafik qruplarının çıxışları əcnəbi qonaqlar tərəfindən yüksək qarşılanmışdır.

Ötən ay Qəbələyə gələn turistlərin əksəriyyəti Rusiya, Türkiyə, Böyük Britaniya, Latviya, İran, Gürcüstan, Ukrayna və Cənubi Afrika Respublikasından olmuşdur.

Hazırda Qəbələdə irili-xırdalı 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Həmin obyektlərdən 19-u beş, dörd və üçulduzlu otellər və müasir istirahət mərkəzləridir. Bu turizm obyektlərində gün ərzində 2500 qonaq qarşılamaq, onlara yüksək səviyyədə xidmət göstərmək mümkündür.